**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“23” fevral 2016-cı il tarixli**
**91 №-li əmri ilə təsdiq edilmişdir.**

“Məktəblilərin elmi-texniki yaradıcılıq işlərinin sərgi-müsabiqəsi”nin keçirilməsi barədə

# Ə S A S N A M Ə

## Məqsəd və vəzifələr

Bakı şəhər məktəblilərinin elmi – texniki potensialının üzə çıxarılması, yaradıcılıqlarının inkişaf etdirilməsi üçün stimulların yaradılması, onlar arasında təcrübə mübadiləsinin təşkili, bu sahədə bilik səviyyəsinin yüksəldilməsi və istedadlı şagirdlərin aşkara çıxarılması.

## İştirakçılar

Sərgi-müsabiqədə Bakı şəhərinin ümumtəhsil məktəblərinin və məktəbdənkənar təhsil müəssisələrinin VIII-X sinif şagirdləri iştirak edir.

## Müsabiqənin şərtləri və keçirilmə müddəti

Sərgi-müsabiqə üç mərhələdə keçirilir.
Birinci mərhələ - təhsil müəssisələrində 01 – 31 mart 2016-cı il.
İkinci mərhələ - Bakı şəhərinin rayonları üzrə 01 – 30 aprel 2016-cı il.
Üçüncü mərhələ - Bakı şəhəri üzrə 11 - 14 may 2016-cı il.
Sərgi-müsabiqə 5 (beş) nominasiya üzrə keçirilir:

1. Aviomodel:
radio ilə idarə olunan təyyarə modelləri
kordalı təyyarə modellərinin surəti

2. Kosmik raket modeli:
kosmik gəmilərin surətlərinin modelləri

3. Avtomodel
radio ilə idarə olunan minik avtomobillərinin surətlərinin modelləri
radio ilə idarə olunan yük avtomobillərinin surətlərinin modelləri

4. Gəmi modeli:
radio ilə idarə olunan hərbi gəmilərini surətlərinin modelləri
mühərriksiz yelkənli qayıq modelləri

5. Radiotexnika:
təlimin texniki vasitələri
məişət və istehsalatda istifadə olunan cihaz və qurğular

Sərgi-müsabiqə iştirakçıları texniki yaradıcılığın yuxarıda göstərilən növlərindən birini seçərək yalnız bir modellə müsabiqədə iştirak edə bilər.
Hər mərhələdə nominasiyalar üzrə I yerin qalibi növbəti mərhələdə iştirak etmək üçün vəsiqə alır.

İkinci mərhələnin yekun hesabatı, müvafiq sənədlər və üçüncü mərhələdə iştirak edəcək şagirdlər haqqında sifarişlər 5 may 2016-cı il tarixədək Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Məktəbdənkənar fəaliyyətin təşkili sektoruna elektron ( elektron ünvan: mk@bakuedu.gov.az) və təsdiq olunmuş versiylarda göndərilir.

Üçüncü mərhələdə - Final mərhələsində Bakı şəhərinin 12 rayonundan 5 nominasiya üzrə ümumilikdə 60 məktəbli iştirak edir.

**Qaliblərin müəyyənləşdirilməsi və mükafatlandırma**

Qaliblər qiymətləndirməyə verilən kriteriyalar əsasında müəyyənləşdirilir. Yekun olaraq qalib gələn iştirakçıların əl işlərinin sərgisi təşkil olunur və onlar Bakı Şəhəri üzrə Təhsil İdarəsinin diplomları və qiymətli hədiyyələri ilə mükafatlandırılır.